# Rəsmi Səfərlər - Viza Məlumat Vərəqi

## Rəsmi məqsədlə (ikitərəfli və yaxud çoxtərəfli) həyata keçirilən səfərlər üçün – rəsmi nümayəndə üzvləri

*Lütfən, viza müraciətinizi online qaydada doldurun. Viza müraciəti online qaydada doldurulubsa, viza üçün görüşlər yalnız online qaydada təyin oluna bilər. Daha ətraflı məlumat üçün 2-ci səhifəyə baxın.*

### Viza şöbəsinə aşağıdakı sənədlər təqdim olunmalıdır:

☐ Lazımi qaydada online və ya əllə doldurulmuş və imzalanmış (azyaşlı üçün hər iki valideynin imzası ilə) ərizə forması

☐ Planlaşdırılmış səfərə azı 3 ay qalmış qüvvədə olan, son 10 ildə təqdim olunmuş və ən azı 2 boş səhifəsi olan orijinal pasport VƏ pasportun surəti (imzanı və şəxsiyyəti təsdiq edən məlumatlar səhifəsi), həmçinin əvvəlki Şengen vizaların və giriş/çıxış möhürlərinin surəti

☐ Təlimatlara uyğun olaraq ağ fonda olan 2 yeni foto (ərizə formasına yapışdırmayın)

☐ Qalacağınız yeri təsdiq edən sənəd: oteldən vizaya müraciət edən şəxsin adı və soyadını, qalma müddətini, otelin əlaqə detallarını dəqiq göstərən vauçer və ya rezervasiya

☐ Uçuş və ya səyahət rezervasiyası, yaxud nəzərdə tutulan nəqliyyatın təsdiqi. Gediş-dönüş bronu

☐ Səyahət planı (əgər birdən artıq ölkəyə səfər edilirsə)

☐ Səyahət qəza/tibbi sığortanın orijinalı və surəti: minimum 30 000 Avro və ya 50 000 ABŞ dollar dəyərində olmaqla bütün səfər müddətini əhatə etməli, bütün Şengen ölkələri üçün qüvvədə olmalı, qüvvədə olma müddətinə əlavə 15 gün daxil olmalıdır (original və ya surət). Sığortaya Covid-19-a aid minimum əhatəni nəzərdə tutan müalicə xərcləri də daxil olmalıdır (30 000 Avro və ya 50 000 ABŞ dolları). Tələbi nəzərə alaraq səyahət qəza/tibbi sığortanın bu şərtlərə cavab verib-vermədiyini sığorta şirkəti ilə dəqiqləşdirin

☐ Dəvət edən qurum və ya beynəlxalq təşkilat tərəfindən rəsmi blankda aşağıdakı məlumatları əhatə etməklə möhürlü və imzalı dəvət məktubu: qurumun və ya təşkilatın tam ünvanı və rekvizitləri; məktubu imzalayan əməkdaşın adı və vəzifəsi; dəvət olunan şəxsin adı, vətəndaşlığı, doğum tarixi və vəzifəsi; səfərin məqsədi və müddəti

***Dəvət məktubunu Səfirliyə qabaqcadan elektron poçt və ya adi poçtla parallel olaraq göndərmək lazım deyil. Səfirliyə elektron poçt və ya adi poçtla göndərilmiş dəvət məktubları qeydə alınmayacaq, və ya qorunub saxlanılmayacaq. Lazımı sənədlər müraciət edən şəxs tərəfindən çap olunaraq Səfirliyə təqdim olunmalıdır.***

☐ Milli qurum və ya təşkilat tərəfindən müraciətçinin İsveçrəyə səfər edən rəsmi nümayəndə heyətinin üzvü olub rəsmi görüşlərdə, məsləhətləşmələrdə, danışıqlarda və yaxud mübadilə proqramlarında, eləcə də dövlətlərarası təşkilatlar tərəfindən İsveçrədə təşkil olunan tədbirlərdə iştiak etməsini təsdiq edən möhürlü və imzalı rəsmi məktub. Məktubda aydın şəkildə qeyd olunmalıdır: qurumun və ya təşkilatın tam ünvanı və rekvizitləri; imzalayan şəxsin adı və vəzifəsi; müraciətçinin adı və vəzifəsi; səfərin məqsədi və müddəti.



Embassy of Switzerland
Nizami Street 96 E (Landmark I Building)
AZ 1010 Baku
baku.visa@eda.admin.ch

Səfirlik müraciətin ilkin yoxlanışından sonra əlavə sənədlər tələb etmək hüququnu qoruyub saxlayır

# Digər vacib məlumatlar:

## Online ərizə
Ərizə formasını PDF formatında yüklədikdən sonra viza rüsumu ödənişi (kredit kartı və ya nağd ödənişlə) sualına keçməniz üçün "next" düyməsinə basın. Müvafiq olaraq, siz öz seçiminizi "next" düyməsini basmaqla təsdiq etməlisiniz ki, qeydiyyat prosesini başa çatdırasınız.

## Baxılma müddəti / Pasportun qaytarılması
Vizaya müraciət planlaşdırılan səfərdən azı 15 təqvim günü əvvəl təqdim olunmalıdır; sənədlər planlaşdırılan səfərdən 6 ay əvvəl də təqdim oluna bilər.

Sənədləri qəbul etdikdən sonra viza əməkdaşı sizə pasportun götürülmə tarixini bildirəcək.

## Viza müraciəti üçün görüş
Əgər online görüş götürmək üçün boş yer yoxdursa, lütfən, bu ünvana e-mail yazın: baku.visa@eda.admin.ch və Səfirliyin saytında göstərilən məlumatları təqdim edin.

Viza bölməsi ehtiyac duyduğu formada görüşləri yenidən təyin etmək hüququnu qoruyub saxlayır. Odur ki, lütfən, elektron poçt hesabınızı, həmçinin spam qovluğunu müntəzəm yoxlayın.

## Rüsum
Bu şəxslər rüsum ödəməkdən azaddır: Azərbaycan Respublikasına rəsmi dəvət ünvanlandıqdan sonra rəsmi görüşlərdə, məsləhətləşmələrdə, danışıqlarda və ya mübadilə proqramlarında, eləcə də dövlətlərarası təşkilatların İsveçrə ərazisində təşkil etdiyi tədbirlərdə iştirak edən rəsmi nümayəndə heyəti üzvləri.

## Viza bölməsinin iş saatları
Viza müraciəti: bazar ertəsindən cümə axşamına qədər saat 09:00-dan 12:00-a qədər (yalnız görüş təyin olunmaqla). Pasportun götürülmə vaxtı: bazar ertəsindən cümə axşamına qədər: 14:00 – 15:00 (görüş vaxtı almağa ehtiyac yoxdur).

## Qrup müraciətləri
6 və daha çox şəxsdən ibarət qrupların online görüş almadan birbaşa elektron poçt vasitəsilə səfirliklə əlaqə saxlaması xahiş olunur.

## Digər
Viza ilə bağlı əlavə məlumatları Səfiriliyin saytından əldə edə bilərsiniz.
Səfirlik kənar agentliklər və ya xidmət təqdim edənlərlə əməkdaşlıq etmir.
Bu sənəd ödənişsizdir.



Embassy of Switzerland
Nizami Street 96 E (Landmark I Building)
AZ 1010 Baku
baku.visa@eda.admin.ch